# Azərbaycanda süni intellekt əsasında formalaşdırılmış startap hazırlanıb



**Azərbaycanda süni intellekt əsasında formalaşdırılmış yeni bir startap məhsulu hazırlanıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) bu məhsula - süni intellekt əsasında veb-səhifələrin dizaynı və hazırlanması üçün nəzərdə tutulan platformaya görə "Jİ Studio" MMC-yə "Startap" şəhadətnaməsi təqdim edib.**

AZƏRTAC Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə istinadla xəbər verir ki, JIS.AI xidməti ideyanın mahiyyətinin qeyd edilə biləcəyi avtomatik proqramdır. İstifadəçi proqramda istədiyi məlumatı yazdıqdan sonra süni intellekt ona dizaynla yanaşı, müxtəlif kontent - yazı, şəkil və ya rəqəmsal dizayn təqdim edir.

"JIS.AI istifadəçilərə eyni zamanda müxtəlif sosial media paylaşımları yaratmağa kömək edir. Bunun üçün, sadəcə, meyarlarınıza uyğun olan kontenti hazırlamağa kömək edəcək açar sözləri yazmalısınız. Xidmətimiz istənilən mövzuda mətn yazmaq imkanı da verir. Siz yalnız mətnin nə haqqında və hansı üslubda olacağını proqrama daxil etməlisiniz. JIS.AI-də brend axtarışı funksiyası istənilən brendin aktivlərinə baxmaq imkanı verir. Bunun üçün hər hansı bir brendin adını daxil edin və platforma bir neçə saniyə ərzində sizin üçün loqotip, rəng, şrift, sloqan, reklam paylaşımları, fotoşəkillər, bir sözlə, istənilən sənaye brendi haqqında vacib olan bütün məlumatları toplayacaq", - deyə MMC-nin təsisçisi Məhərrəm Əliyev qeyd edib.

M.Əliyev əlavə edib ki, artıq 7000-dən çox istifadəçi JIS.AI-dən istifadə edib. Gələcəyin personal marketinq köməkçisindən istifadə edənlər ödənişi ilk 100 cəhddən sonra edə bilərlər.

Azərbaycan.- 2024.- 8 avqust (№ 167).- S.2.